**Vətənin gözəlliyi, müqəddəsliyi təbiətində, sərvətində bir də onu vəsf edən qələm sahibinin könlündə şölələnir. Vətən eşqi şairin qəlbində alovlanırsa, o, xalqın səsinə çevrilir. Deyilə bilməyənləri yazır, odlu-atəşli misraları ilə zülməti söz nuruna qərq edir.**



***Vətən eşqi məktəbində***
***can verməyi öyrənmişik,***
***Ustadımız demiş heçdir***
***vətənsiz can, Azərbaycan.***
***Qurtarmaqçün zalımların***
***əlindən Rəy şümşadını***
***Öz şümşadın başdan-başa***
***olub al qan, Azərbaycan.***

Bu misralar böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın qələmindən süzülən dövrün hayqırtısı, millətin içində boğduğu fəryad idi. O, əsarətdə əzilən xalqının səsini hayqırtı ilə dünyaya çatdırırdı. Qələmi ilə millətin qürurunu, ağrısını və azadlıq həsrəti-

# EŞQ TAXTINDA TACLANAN, POEZİYADA UCALAN ŞƏHRİYAR

ni zamanın yaddaşına həkk edirdi. Şəhriyarın bədii dilinin gücü onda idi ki, oxucu bu misralarda acı ilə yanaşı, fəxarət və direniş ruhunu hiss edirdi. "Rəy şümşadı" xilaskar obrazı ilə gələcəyə ümidi, azadlığa inamı; "başdan-başa al qan" təsvirlə isə keçmişin faciəli, qanlı tarixini bir-birinə bağlayan şair azad düşüncənin qaranlıqda yanan çırağı idi.

"Əvvəli sultani eşq, axırı ustadi-şeir Şəhriyar" adlandırılan ustad şair Seyid Məhəmmədhüseyn Behcəti Təbrizi 1906-cı il iyul ayının 31-də Cənubi Azərbaycanın Təbriz şəhərində dünyaya göz açmışdır. Atası Hacı Mirağa dövrünün tanınmış vəkillərindən biri, anası Kövkəb xanım isə evdar qadın idi. Kiçik Məhəmmədhüseynin ömrü XX əsrin müəyyən mərhələlərində Cənubi Azərbaycanda, İranda baş vermiş şiddətli sinfi mübarizələr, milli istiqlaliyyət, mədəni yüksəliş və milli tərəqqi uğrunda ictimai-siyasi çarpışmalar dövründə keçmişdi. Ədəbiyyata sevgisi və bağlılığı da elə uşaq ikən başlamışdı. Şəhriyar ilk şeirini dörd yaşında bədahətən demişdi. Məhəmmədhüseyn naharda ona ət qutabı verən xidmətçi Ruqiyyə xanıma şairanə xitab etmişdi:

***Ruqiyyə bacı, başımın tacı,***
***Əti at itə, mənə ver kətə.***

Şəhriyar hələ 7 yaşından azərbaycanca, 9 yaşından isə farsca şeirlər yazmağa başlamışdı. Cənubi Azərbaycan və İran xalqlarının antiimperialist mübarizəsinin, milli istiqlaliyyət uğrunda demokratik hərəkatının ilk mərhələsi olan Məşrutə inqilabı (1905-1911) zamanı Təbriz şəhəri böyük siyasi və sosial fırtınaların mərkəzinə çevrilmişdi. Bu mürəkkəb və təhlükəli dönəmdə kiçik Məhəmmədhüseynin atası Hacı Mirağa ailəsinin təhlükəsizliyini təmin etmək məqsədilə, Təbrizin siyasi burulğanından uzaqlaşaraq ata-baba yurdu olan Abbas mahalının Xoşginab kəndinə köçməyə məcbur olmuşdu. Beləcə, Məhəmmədhüseyn uşaqlıq illərini Xoşginab kəndində, Heydərbaba dağının ətəklərində, doğma torpağının qoynunda keçirmişdi. İlk təhsilini də Xoşginab kəndində Molla İbrahimdən və Molla Ağa Məhəmməd Bağırdan almışdı. Ona qədər isə yazıb-oxumağı dövrünün tanınmış ziyalısı olan atasından öyrənmişdi və zaman keçdikcə Qurani-Kərimdən, Hafizin divanından, Sədinin "Gülüstan" və "Bustan" əsərlərindən, eləcə də "Nəsab" adlı ərəbcə-farsca mənzum lüğətdən oxuyub öyrəndiklərini mükəmməlləşdirmişdi.

Türkcə ilk şeirini 1913-cü ildə M.Ə.Sabirin əsərlərindən təsirlənərək yazmışdır. Onun yaradıcılığında məhəbbət lirikasının böyük ustadları Hafiz və Füzulinin qəzəlləri ilə müqayisə oluna biləcək sevgi şeirləri, dünyanın mahiyyəti barədə fəlsəfi düşüncələri əks etdirən hikmətli qəsidələr, həmçinin real həyat müşahidələrinin məhsulu kimi ortaya çıxan lirik poemalar yer alır. Lakin sənətkarı Azərbaycan şeir sənətinin zirvəsinə ucaldan ilk növbədə vətənpərvərlik duyğuları aşılayan, milli həmrəylik ideyasını təbliğ edən əsərləri idi. Təhsilini davam etdirmək üçün 1921-ci ildə Tehrana gələn Məhəmmədhüseyn Məhəmmədəli Şah Qacarın bacısı Əkrəm üs-Səltənənin evinə yerləşmiş və burada Darülfünuna, təhsilini başa vurduqdan sonra isə 1924-cü ildə Tehran Universitetinin tibb fakültəsinə daxil olmuşdur.

Həyatının coşqun vaxtlarında, tələbəlik illərində Məhəmmədhüseyn Süreyya adlı bir qıza könül verir. Ona olan məhəbbətini ifadə etmək üçün yaşadığı Behcətabad məhəlləsinin adından götürülən "Behcət" təxəllüsü ilə şeirlər yazır. Bu, İranın çağdaş poeziyasının tanınmış nümayəndələri arasında böyük maraq doğurur. Şairin sözlərinə görə, təxəllüsünü sonradan dəyişmək məcburiyyətində qalır. Çünki həmin təxəllüsü başqa şairlər də istifadə edirdilər. Bu çaşqınlıq və qərarsızlıq içində həll yolu tapmaq məqsədilə o, klassik şair Hafizin divanından fal açmağa qərar verir. Fal açmaq qədim və ənənəvi adət idi, gələcək barədə işarə və ya məsləhət almaq üçün müxtəlif kitablardan təsadüfi misralar seçilirdi. Hafizin divanından açdığı səhifədə qarşısına çıxan misralar ona ilham verir və yeni təxəllüs seçməkdə yol göstərir.

***Çərxi-fələk sikkəni şəhriyarların***
***adına döydürdü,***
***Mən də öz şəhrimə gedib,***
***öz Şəhriyarım olmalıyam.***

Çərxi-fələk iki sözün birləşməsidir: "çərx" - dairə, dövrə; "fələk" isə kainat və ya səma deməkdir. Birlikdə "çərxi-fələk" kainatın, dünyanın dövrü deməkdir. Bu ifadə insan həyatının və taleyin dəyişkənliyini simvolizə edir. Klassik şeirlərdə və fəlsəfi düşüncələrdə "çərxi-fələk" taleyin, qismətin, dünyanın




dönüb dəyişməsini, həyatdakı yüksəliş və enişləri ifadə etmək üçün işlədilir. Burada "şəhriyar" sözü hökmdarları, ucalan, öz sözünə hakim olan şəxsiyyətləri təsvir edir. Yəni, taleyin böyük çarxı onların adını tarixə yazıb, nüfuzunu bütün aləmə yayıb. "Mən də öz şəhrimə gedib, öz Şəhriyarım olmalıyam" misrası isə şairin doğma məkanına qayıdaraq, böyük hökmdarların izini sürməkdənsə, öz iç dünyasında mənəvi kamilliyə ucalmaq, öz sözünün sahibi olmaq arzusunu bildirir. Bu misralar onu dərindən təsirləndirir və "Şəhriyar" təxəllüsünü götürməyə qərar verir. Gənc Şəhriyar dövrünün ab-havasına, siyasi mütəhərrikliyinə də laqeyd qalmır, əsərlərində ictimai quruluşa, müstəbid rejimə qarşı kəskin etiraz ruhu özünü göstərir. Şeirlərindəki mübarizə, etiraz motivləri yaşadığı ədəbi mühit, baş verən ictimai-siyasi hadisələr və 1928-ci ildən iştirak etdiyi Doktor Xəlil xan Səqəfinin yaratdığı "Ehzare-ərvah" məclisindən də qaynaqlanır. Universitet illərində Şəhriyarın bir sıra şeirləri Tehran mətbuatının səhifələrində çap edilir. İlk mətbu şeiri Təbrizdəki Məhəmmədiyyə orta məktəbində oxuyarkən burada nəşr edilən "Ədəb" jurnalında, ilk şeir kitabı isə 1931-ci ildə Tehranda üç böyük şair və alimin - Məlikü-şüəra Baharın, Səid Nəfisinin və Peyman Bəxtiyarinin müqəddimələri ilə nəşr olunur. Lakin universitetin son kursunu bitirib ixtisaslaşmış hərbi həkim diplomu almasına iki-üç ay qalmış gənc Şəhriyarın həyatında ağır hadisə baş verir. Saf qəlblə sevdiyi, aşiq olduğu Süreyyanı eyni vaxtda sevən şahın əmisi oğlu Şəhriyara təzyiqlər edərək onu 1932-ci ildə universitetin son kursundan Nişapura sürgün etdirir. Beləliklə, Şəhriyar ali təhsilini yarımçıq qoyur. Nişapurda dostlarından, vətənindən uzaq əzab-əziyyətli həyat yaşamağa məhkum edilən şair keçmişi, ötən günlərini tez-tez xatırlayır, həzin xatirələrlə zəngin Tehranı unuda bilmir. Orada mühasib-hesabdar işləməyə başlayan şair "Tehranı yad edərkən" şeirini yazmaqla təsəlli tapır. Daha sonra isə "Nişapurda" və "Nişapurda günəş batarkən" məsnəvilərini, "Şairin evlənməsi" qəsidəsini qələmə alır. 1934-cü ildə Şəhriyarın atası Mirağa Xoşginabi vəfat edir. Lakin sərt sürgün qaydaları oğulun atasının dəfn mərasimində iştirak etməsinə imkan vermir. Xorasandan çıxması yasaqlanmış Şəhriyarın Təbrizə getməyə ixtiyarı olmur. Şair atasının ölümündən doğan üzüntüsünü, kədərli duyğularını "Atamın matəmində" adlı qitəsində ifadə edir. 1936-cı ildə Şəhriyar sürgündən qayıdır, şair məclisi düzəldir. Orada yeni yaradıcılıq nümunələri, yazılmış poemalar, şeirlər oxunub müzakirə olunur. Süreyyanın qohumları şairlərə xidmət göstərən, onlara çay, qəhvə və yemək verən xidmətçiyə Şəhriyarı və onun iki yaxın dostunu zəhərləyərək öldürməyi əmr edirlər. Şairin iki dostu zəhərlənərək vəfat edir. Anası Kövkəb xanıma bu barədə xəbər çatır. Kövkəb xanım həmin xidmətçinin evinə gedir və yalvar-yaxar edir ki, Şəhriyarı zəhərləməsin. Xidmətçi Kövkəb xanıma söz verir və sözünə sadiq qalır.

Cənubi Azərbaycan xalqının milli azadlıq hərəkatı tarixində ən parlaq səhifə olan "21 Azər" hərəkatı 1945-ci qələbə çalır, Milli Hökumət qurulur. Lakin bir il sonra İran hökuməti və onun xarici ölkə havadarları tərəfindən devrilir, xalqın hərarətinə təzəcə qızındığı azadlıq günəşi söndürülür. Ölkədə demokratik islahatlar ləğv olunur, danışan dillərə qıfıl vurulur, Azərbaycan türklərinə qarşı zülm daha da güclənir. Belə ağır ictimai-siyasi şəraitdə Şəhriyar kimi vətənpərvər yazarlar da susmayıb ittihamnamələr yazır, milli ayrı-seçkiliyə qarşı çıxırdılar. Məhz bu dövrdə, o, məşhur "Heydərbabaya salam" mənzuməsini yazaraq bütün mənfi təmayüllərə sarsıdıcı zərbə vurur:

***Heydərbaba, səni vətən bilmişdim,***
***Vətən deyib baş götürüb gəlmişdim,***
***Səni görüb gözyaşımı silmişdim,***
***Halbuki lap qəmli qürbət səndəymiş,***
***Qara zindan, acı şərbət səndəymiş.***

"Heydərbabaya salam" mənzuməsi əlyazma şəklində yayıldıqca söz ustalarını doğma ana dilində mübarizə aparmağa şövq edirdi. Şəhriyarın özünü ana dilində yazmağa şövq edən isə anası Kövkəb xanım olmuşdur.

Bir gün anası Şəhriyara deyir: "Oğlum, hər kəs sənə "ustad Şəhriyar" deyə müraciət edir. Lakin mən bir şeyi anlamıram. Analar dilsiz uşaqlarının belə, dilindən anlayırlar. Sən şeirlərinin hansı dildə yazırsan ki, mən onlardan heç bir şey anlamıram?" Anasının bu sözlərini eşidən şair sanki röyadan ayılmışdı.

1953-cü ildə Təbrizə səfər edən şair Əzizə xanımla ailə həyatı qurur. Bir müddət sonra anası Kövkəb xanımın dünyasını dəyişməsindən duyduğu üzüntülərin təsiri ilə "Heydərbabaya salam" poemasının II hissəsini qələmə alır. O, İran İslam İnqilabını böyük sevinclə, coşğun duyğularla qarşılayır, keçirdiyi hiss və həyəcanlarını inqilab ruhlu "İnsansaz inqilabımız", "Allah boyağı" adlı şeirlərində ifadə edir. Ustad şair "Heydərbaba salam"dan sonra Cənubi Azərbaycan ədəbiyyatında yeni cığır açır və bu əsər Azərbaycan türkcəsinin üfüqlərini genişləndirir. Məhəmmədhüseyn Şəhriyarın əsərləri hələ şairin sağlığında Türkiyədə nəşr olunur, Anadolu türkcəsində uğurla səsləndirilir. Bütün ömrü boyu yalnız Azərbaycanın, Azərbaycan xalqının taleyini düşünən, elobasının sevincinə sevinib, qəminə kədərlənən Şəhriyar sərkərdələrin qılınc, silah gücünə əldə edə bilmədiklərinə sözün ecazkar qüdrəti, gücü ilə nail oldu. Türk dünyasını mənən birləşdirməyi bacardı. Türk dilinin yasaqlandığı, türk təfəkkürünün unutdurulduğu bir vaxtda şair "Türkün dili" əsəri ilə münasibət bildirdi:

***Türkün dilitək sevgili,***
***istəkli dil olmaz,***
***Ayrı dilə qatsan,***
***bu əsil dil əsil olmaz.***

Məhəmmədhüseyn Şəhriyar uzun sürən xəstəlikdən sonra 18 sentyabr 1988-ci ildə 82 yaşında Tehranda vəfat edir. Məzarı Təbrizdə Şairlər məqbərəsindədir. Ömrünün son illərini Təbrizdə keçirən şairin sənəti kimi məzarının da müqəddəs tutularaq ziyarətgaha çevrilməsi Şəhriyar odunun sönməzliyini bir daha təsdiq edir.

***Zaman keçir, üfüqlərdə toz qalır***
***Karvan kimi uzaqlarda toz salır,***
***Duman gəlir, yürəkləri çulğalır***
***Ürək deyir: zaman, keçmə, amandur,***
***Keçənlərdə gözüm var, bir dayan, dur.***


**Fidan ƏLİYEVA,**
**"Respublika".**



Respublika .- 2025.- 31 iyul (№ 157).- S.7.